# Akif Səməd – 60

Zər ilə qoşa atıldım,
Nərdi başa düşmədim.
Namərdi başa düşdüm,
Mərdi başa düşmədim.

Nə ağırmış söz işi,
Söz işində düz işi,
Sevinc qaçdı - öz işi,
Dərdi başa düşmədim.

Yolları daşa düşdüm,
Bir ömür qışa düşdüm,
Eh   birdi başa düşdüm,
Birdi başa düşmədim?..

* * *

Sonuna çıxmışam ömrün
Otuz doqquz otağının.
Hələ dərdin yazammadım,
İydənin bir budağının.

Haqq yolundan haqqa varan,
Qışda naram, yayda qaram,
Qulluğunda yorulmaram,
Bağbanıyam dost bağının.

Akif Səməd sirli səsdi,
Sevgi, sevda bir həvəsdi,
Kölgəsicə ona bəsdi,
Qızıl gülün yarpağının.

* * *

Bilən balam, bir bəri bax,
Nə aşkardı, odu gizlin.
İşıq vermir yanan çıraq,
Aşıq yanar, odu gizlin.

Baltanı daşa vururuq,
Təpiyi qoşa vururuq,
Bir ömür başa vururuq,
Yaxını yad, yadı gizlin.

Haqq danışır sərin-sərin,
Ovçusuyuq gözəllərin,
Yüz bəllidən daha dərin,
Bir sərsəri, adi gizlin.

Haşa, bildiyinə baxma,
Yaşa, bildiyinə baxma,
Qoşa bildiyinə baxma,
Akif bəlli, Hadi gizlin.

### TÜRKÜ

Mənmi düşmüşəm kəməndə,
Gözüm yox lələ, yəməndə.
Bilməm tanrıyam, ya bəndə,
Yeddi dindən çıxarıyam.

Özümə kəsildim qənim,
Kimin əvəzinə dinim,
Xırmanda döyülən dənin
Kəpəyiyəm, çıxarıyam.

Dərdim-qəmim çiçək-çiçək,
Yadnan gülək, adnan ölək,
Özgə böcək, gəlmə böcək,
Pətəyimdən çıx, arıyam.

Kim qovladı anrı haqqı,
Ana haqqı, Tanrı haqqı,
Dörd kitab, bir Tanrı haqqı,
Çox duruyam, çox arıyam.

### ATİLAYA

Kərəmin Əslisi oldu,
Lələcə yaşadım, oğul.
Bülbülü fəryad eləyən,
Güləcə yaşadım, oğul.

Yar qaldı, yaddan yarındım,
Kül qaldı, oddan barındım,
Su qaldı, odda arındım,
Beləcə yaşadım, oğul.

Can qoydum yarın yolunda,
Qaçmadım qeylü-qalında,
Önümdə öküz, dalımda,
Şələcə yaşadım, oğul.

Yamanın görkü olmadım,
Yalanın kürkü olmadım,
Yamacda tülkü olmadım,
Pələngcə yaşadım, oğul.

*iyun, 2001*

### DURNALARA

Mənə deyin necədi,
Anrılar, ay anrılar
Anrılarda rahatmı,
Tanrılar, ay Tanrılar?

Nağıllarım bağ dadır,
Aran dadır, dağ dadır,
Xurmalıqmı Bağdadım
Durnalar, ay durnalar?

Göydən ensəniz heç nə,
Akif kimsəsiz, heç nə.
İndi dinsəniz, heç nə -
Sonralar, ay sonralar...

* * *

Adamı Allah saxlayar,
Məni də Allah saxlayır.
Tövbəyə növbələrim var,
Etdiyim günah saxlayır.

Şeirimə ağ şam gətirir,
Dərib ağacdan gətirir,
Sabahı axşam gətirir,
Axşamı sabah saxlayır.

Yox, əsir yel - belə ki,
Şeytanım qurur tələ ki,
Nə deyim vallah, hələ ki,
Allaha pənah, saxlayır.

Ədalətim şah əlində,
Danışır Akif dilində,
Qara sazdı, hər telində
Çəkilmiş min ah saxlayır.

### 45 YAŞIN ŞEİRİ

O Göy dağın yaşılında
Qara xaçı təzə gördüm.
Hər kola təzə ağladım,
Hər ağacı təzə gördüm.

Günlərim qaralı-ağlı,
Ağlaram aranlı-dağlı.
Yanan kəsin qolu bağlı
Yox əlacı - təzə gördüm.

Məni dərdim-qadam gözlər,
Anam gözlər, atam gözlər,
Quruyubdu, adam gözlər
Dar ağacı, təzə gördüm.

Həsrət-həsrət bizi anır,
Sözə yanır, bizə yanır
Göy vələsi, dağdağanı,
Qarağacı təzə gördüm.

### ELƏ YOLLARI VAR CAN SAXLAMAĞIN...

*Məmməd İlqar*

Əyrilərin yolu min bir,
Düz yaşamağın yolu bir.
Söz yazmağın yolu min bir,
Söz yaşamağın yolu bir.

Nə qələm-dəftərdən soruş,
Nə qəmdən, kədərdən soruş,
Aşıq Ələsgərdən soruş -
Yüz yaşamağın yolu bir.

Su tökməknən quyu dolmaz,
Əlləş yayı, qışa qalmaz,
Yazılandan çıxmaq olmaz
Süz, yaşamağın yolu bir.

Soruşub qanana deynən,
Canından yanana deynən,
Göründə anama deynən:
"Biz yaşamağın yolu bir".

* * *

Dərya gördüm, kənarı yox,
Baharsız ömür yaşadım.
Sənə qalsa yaşamazdım,
Var Tanrıdan əmr, yaşadım.

Çaya qoşulub axmadım,
Üzüb bir yana çıxmadım,
Aya boylanıb baxmadım,
Almadım çimir, yaşadım.

Dünya nədi, hazar ondan,
Gürzə gəzir gülzarında.
Uca sözün hüzurunda
Üzümdə kömür yaşadım.

* * *

Elə şeylər var, gizləyin,
Bilməyə qoymayın məni.
Yasda ehtiyatlı olun,
Gülməyə qoymayın məni.

Özümdən sözlərim dərin,
Gedin daşları dindirin.
Dərdi bütöv-bütöv verin,
Bölməyə qoymayın məni.




Məndən çoxmu uzaqsınız,
Məzarımı qazırsınız,
Özünüz də yazıqsınız,
Ölməyə qoymayın məni.

* * *

Vərəqə düşə bilmir
Qələmdə söz qocalır.
Gedib kəndimə yetmir,
Arxamda iz qocalır.

İncəsiz Kür azalır,
Axırdı gur - azalır.
Gözümdə nur azalır,
Bağrımda köz qocalır.

Kənddəki qara daş mən,
Qara daşa qardaş mən.
Qardaşım, mən cəhənnəm,
Uşaqlar tez qocalır.

* * *

Kölgə qara olar,
Ağ kölgə gördünmü?
Kölgə yarın olar
Yad kölgə gördünmü?

Kölgə oynar toyda,
Oynar qışda, yayda.
Olar təpə boyda
Dağ kölgə gördünmü?

Kölgə əyinə dar,
Yox, geyinmək olar.
Bağın kölgəsi var,
Bağ kölgə gördünmü?

### SAZIN YUNUS ƏMRƏ KÖKÜNDƏ

Allah insaf deməkdir,
İnsafa salam olsun.
İnsan sana köməkdir,
İnsana salam olsun.

İş tuturam, gülürsən,
Haqdan haqqa gəlirsən.
Sanı yaxşı bilirsən
Sən sana, salam olsun.

Akif gedir ayrıca,
Ayrı dərə, ayrı su.
İki yolun ayrıcı -
Hansına salam olsun?

* * *

İndi harda qalıbsınız,
Ömrümü içdiyim dostlar.
Bir zamanlar bel bağlayıb,
Körpüdən keçdiyim dostlar.

Yerdən cücərən gülmüşəm,
Gözümü təzə silmişəm,
Elə bilməyin ölmüşəm,
Mən gələm, səsləyin, dostlar.

Yellənirik bir qucaqda,
Bir soyuqda, bir sıcaqda.
Danışmayın künc-bucaqda
Üzümə "köç" deyin, dostlar.

Ağacdı baltanın sapı,
Mələk də yolundan sapır.
Təzədən kimləri tapım,
Qırx ilə seçdiyim dostlar?

*Davamı səhifə 15-də*

* * *

Necə gündü, necə yazdı,
Üşüyür kim, qızınır kim,
Nə sövdadı, nə bazardı,
Uduzur kim, qazanır kim.

Qara daşa söz oxudur,
Kötüyə nərgiz qoxudur,
Nə yığvaldı, nə yuxudu?
Yazanı kim, yozanı kim?

Mən öz qəmim ilə dostam,
Yetim qalar onu atsam,
Sənə sevgim qəmli dastan,
Əzanı kim, ozanı kim?

* * *

Yataram yuxum ağrımaz,
Bir misra duyğum ağrımaz,
Sevinmə, ruhum ağrımaz,
Mənimki can ağrısıdı.

Səyyad sayılan söz ovlar,
Kimi çox, kimi az ovlar,
Çəkilən cümlə əzablar,
Bir qaşıq qan ağrısıdı.

Bir sözün var yüz ağrısı,
Hər ağrının öz ağrısı,
Şair kəsin söz ağrısı,
Dünyanın son ağrısıdı.

* * *

Onun oduna mən yannam,
Oduma bircə o gəlsin.
Onun yolunda mən ölləm,
Dadıma bircə o gəlsin.

Torpağam, ondan dən allam,
Dənəm, eşqindən gün allam.
Hər qadasını mən allam,
Qadama bircə o gəlsin.

Gülümə arı gəlməsin,
And ver, sən tanrı, gəlməsin.
Dünyanın varı gəlməsin,
Adama bircə o gəlsin.

* * *

Qıtdı bazarı, cəhənnəm,
Gözlər məzarı cəhənnəm,
Dərdi-azarı cəhənnəm,
Təkcə bu gözələ görə.
Dünyanı sevməyə dəyər.

Bivəfa, fani də olsa,
Qadası, qanı da olsa,
Qulu da, xanı da olsa,
Veyil gəzib dərə-dərə.
Dünyanı sevməyə dəyər.

Xoş gəlirəm, xoş gedirəm,
Əl-ayağı boş gedirəm.
Ölümünə tuş gedirəm,
Ölümünü görə-görə,
Dünyanı sevməyə dəyər.

* * *

Varıb, varıb yara yetdim,
Hardan gəlib, hara yetdim?..
Mənsur kimi dara yetdim,
Dost məni görmədi, könlüm.

Qarışqaya dən gətirdim,
Buz ürəyə gün gətirdim,
Hər çətini mən götürdüm,
Dost məni görmədi, könlüm.

Qanadımı oda verdim,
Kar qayaya səda verdim,
Ürəyimi bada verdim,
Dost məni görmədi, könlüm.

* * *

Mən məni harda itirdim,
Mən məni kimdə gəzirəm?!
Mən məni darda itirdim,
Bilməyib gendə gəzirəm.

Bir sınıq könül yappadım,
Kimsədən tikə qappadım,
Günəşli gündə tappadım,
Dumanda, çəndə gəzirəm.

Bəlkə də simdə itirdim,
Ara him-cimdə itirdim,
Özümü kimdə itirdim,
Qayıdıb səndə gəzirəm.